

# AZƏRBAYCAN CÜMHURİYYƏTİ MƏFKURƏSİ VƏ BƏDİİ ƏDƏBİYYAT

Cavanşir YUSİFLİ

Azərbaycan Cümhuriyyətinin yaranması, süqutu, sonradan, uzun illər keçəndən və ağır müstəmləkə zülmündən sonra yenidən bərpası, xüsusən, son bir neçə on il ərzində davamlı şəkildə araşdırılmış, mühüm sənədlər ortaya çıxmış, təhlillər aparılmışdır. Cümhuriyyətin formalaşması və süqutu ilə bağlı hadisələr təfsilatı ilə təsvir edilmiş, Cümhuriyyəti doğuran, yaradılmasına səbəb olan şərtlər – tarixi şərait, Cümhuriyyət məfkurəsinin kökləri yetərincə olmasa da, əsasən, təhlil edilmişdir. Həm elmi araşdırmalarda, həm də həyatın özündə, zamanın gedişində...

Millətin həyatı və taleyi ilə sıx bağlı olan ideyalar ölmür. Məmməd Əmin Rəsulzadənin qısa müddətdə Finlandiyada olduğu zaman "Azərbaycan gəncliyinə müraciət" adlı əsər yazması məlumdur. Bu yazının yazılmasına səbəb, şübhəsiz ki, onun diqqətini cəlb edən müşahidələri olmuşdu. Fin xalqı illər boyu sürən müstəmləkə zülmünə qarşı mübarizə ruhunu mahnı və nəğmələrdə, xalq deyimlərində qoruyub saxlamışdı.

Həmin xalqın əfsanələrində möhkəmcə oturuşmuş bir inanc var. Təqribən belə: Meşə. Külək qəribə simfoniya yaradıb. Ən böyük (başqalarının gördüklərindən böyük...) ağacın altında durub gözlərini yumubsan. Heç nə görmürsən. Ancaq kimsə görür bu mənzərəni. Gələcəkdə. Çünki uşaqlıqda gördüyümüz şeylər sonralar bir-bir, kadr-kadr ekrana gəlir, ta ölənə qədər. Nə olur-olsun, bu tamaşaya, ən azından onun bizdən bəhs edən bir fraqmentinə hökmən baxırıq. Yarpaqlar ayaqları bağlı quşlar kimi səmanın qoynuna (dərinliyinə...) əsir, göydəki quşlar anidən dayanıb buludların ətəklərindən tökülən yarpaqlara qoşulub uçur. Gözlərini yum, sevdiyin ağacın ruhunu görəcəksən...

Bu mif mətninin içində gizli saxlanan həqiqətin çözülməsi üçün biz sözü gedən hadisə-mətləbi tarixi planda dərk etməliyik, yəni cümhuriyyət məfkurəsi ilə bağlı nə varsa, bilavasitə Azərbaycan tarixinin keşməkeşləri kontekstində izah və şərh edilməlidir. Həm də ideya toqquşmaları, ideya mübarizəsi fonunda. Təsadüfi deyil ki, Paris Sülh Konfransına göndərilən nümayəndə heyəti də müxtəlif Qərbi Avropa dillərində yazdıqları hesabatlarda bu məsələni bu şəkildə qoyurdular. Diqqət edin: "Bakı regionundakı zəngin neft yataqları Azərbaycanın mənşəyini hər hansı yazılı mənbədən daha yaxşı ifadə edir. Sönməyən alov dilləri kimi, Azərbaycan da taleyin oyunlarına, siyasi və sosial çevrilişlərə, iqtisadi dəyişikliklərə baxmayaraq, öz yoluna davam etmişdir. Azərbaycan torpaqları Makedoniyalı İsgəndərdən tutmuş, Teymurləngə qədər bir çox məşhur fatehlər görmüş, onun sakinləri ərəblər, farslar, Osmanlı türkləri və başqaları ilə üz-üzə gəlmişdilər. Bu çağırılmamış qonaqlar, təbii ki, Azərbaycanın ərazi və etnik tərkibinin əsaslı surətdə dəyişilməsinə təsir göstərmişdilər. Ölkənin bir hissəsi hərbi güc tətbiq edilməklə İrana birləşdirilmiş, digər hissəsi isə Qafqazın coğrafi sərhədləri daxilində qalmışdır. Məhz bu

şərait Azərbaycan xalqının taleyində mühüm rol oynamışdır."

Cümhuriyyətin yaranması, başqa sözlə, cümhuriyyət məfkurəsinin formalaşması 1) dünyada gedən proseslərlə, 2) Azərbaycan xalqının öz daxili potensialının müəyyən həddə çatması və nəhayət 3) bu dönəmdə istiqlal məfkurəsinin yaranması prosesi ilə bağlıdır. Cümhuriyyətin arxasında, idarə pultunda nəhəng simaların olduğunu xatırlayın; onu da xatırlamalıyıq ki, o dövrdə super dövlətlərdə belə bir münasibət formalaşmışdı ki, kiçik xalqlar müstəqil ola bilməzlər, dövlət qura bilməzlər. Bu faktoru da nəzərə aldıqda XX əsrin əvvəllərində yetişən məfkurənin xalq üçün nə qədər önəmli olması və əslində, gələcəkdə də meydana çıxma imkanını istisna etmir. Bir güclü ideya müəyyən dönəmdə qırıla, yaxud susdurula bilər, yaxud ondan sui-istifadə edilə bilər, ancaq zaman keçdikcə onun rişələri mütləq üzə çıxır...

Azərbaycan xalqının daxili potensialının müəyyən həddə çatması və bu dönəmdə istiqlal məfkurəsinin formalaşması prosesi, xüsusən, o dövrün poeziyasında aydın şəkildə özünü göstərir. Hansı ideya mövqeyində durmasından asılı olmayaraq bu məfkurə ilə yaşayan bütün qələm sahibləri, siyasət adamları həmin prosesin iştirakçıları oldular.

Əhməd Cavad həmin dövrün ab-havasını, daxildə, alt qatlarda gedən prosesin bütün fəsadlarını özünəməxsus riqqət və təlaşla ifadə edirdi. Onun lirik mətnlərində misralararası cazibə sahəsi özündə şairin iradəsindən asılı olmayaraq gələcəyin də faciə və məşəqqətlərini doğru-dürüst şəkildə göstərirdi.

*Qorxutmayır məni bu qanmayanlar,*
*İsrafil surundan oyanmayanlar...*

Bədii mətn, poeziya nümunəsi gerçəkliyin ən müxtəlif laylarına səpələnmiş küyü (indinin və gələcəyin qara buludlarını!) həmin o misralararası sahədə elə "həll edir" ki, şeir proqnoz olmaq imkanından vaz keçib taleyə çevrilir, təkcə şairin yox, elə millətin də. Bədii mətnin oxusu, mütaliəsi əvvəlcə özünün daxili ritmi ilə oxucuları bir yerə, bir düşüncə mərkəzinə yığsa da, sonradan onları ayırır, çünki hər bir insan bu şeirdə millətin taleyini bir şəkildə görür və öz taleyini bu mətnə bir şəkildə qatır və ya bu mətnin güzgüsündə özünü tam başqa şəkildə görür. Bu mənada Əhməd Cavadın 1925-ci ildə yazdığı "Göy Göl" şeiri səciyyəvidir. Şeirin adı mütaliənin ən müxtəlif dönəmlərində onun ideologiyasına, poetik formuluna müxtəlif şəkildə nüfuz edir. Şeirin adı (Göy Göl...) nə vaxtsa, hansı əsrdəsə baş verən zəlzələ, dağların parçalanması, qayaların qopması... zəmanənin içindəki küyü səsə – şairin gələcəkdən xəbər gətirən pıçıltısına çevirir. Professor Qorxmaz Quliyev yazır: "...Əhməd Cavadın məşhur "Göy göl" şeirində ezop dilinin ortaya qoyduğu imkanlardan məharətlə istifadəsi kod-küy münasibətlərinin bu növünə misal ola bilər: əsər bir tərəfdən gözəl poetik nümunədir, digər tərəfdən müəllifin poetik kodun üzvi tərkib hissəsi qismində kifayət qədər "şəffaf" küy vasitəsilə son dərəcə təlatümlü bir dövrdə – XX əsrin əvvəllərində Azərbaycan xalqının arzu və ümidlərini, başının üstünü alan təhlükələri ifadə edir. İkincisi, oxucunun ədəbi-bədii mətndə küyün yaratdığı maneələri dəf etmək və müəllifin ifadə etdiyi mətləbləri bu və ya digər səbəbə görə dərk etmək iqtidarında olmaması. Bəzən müəlliflər bədii kodda küyün xüsusi çəkisini son dərəcə artırmaqla özləri ilə oxucu arasında keçilməz maneə yaradırlar və bilərəkdən oxucunu özlərindən təcrid edirlər." Uzaqlaşdırma, təcrid etmə hardasa həm uzaqdan baxışın labüdlüyü, həm də niyyətin işarələr içində "gizlədilməsi"nə xidmət edirdi.

*Kəsin eyşi-nuşi, gələnlər, susun!*
*Dumandan yorğanı, döşəyi-yosun.*
*Bir yorğun pəri var, bir az uyusun,*
*Uyusun dağların maralı Göy göl!*
*Dolanır başına göydə buludlar,*
*Bəzənmiş eşqinlə çiçəklər, otlar,*
*Öpər ayağından qurbanlar, otlar*
*Ayrılıq könlünü qıralı, Göy göl!*

Əhməd Cavadın 1915-ci ildə yazdığı "Nə gördümsə" şeirində bu mənzərə daha da konkretləşir. Şeir nağıl dili və üslubuyla başlayır. Bir quş oldum, çıxdım yola // getdim gördüm dost elində // nə bir səs var, nə bir layla. Ancaq tezliklə bu "yüyrək dilinin altındakı qüssə lay-lay görünür. Belə getsə // o dağlarda// illər keçər, çiçək bitməz/-/o dağları duman basmış//duman getməz//yaman getməz. Əhməd Cavad naləsi, onun poetik idealı xalqın bağrının başından qopduğu üçün bədii mətndə keçmiş və gələcəyi kədərin aşıb-daşdığı yerdə düyünləyir. Keçmiş və gələcəyin mətnləri ilə virtual əlaqələr bu bədii parçanın informativ yükünün, əslində, elə dağlar qədər ağır olması fikrini təsdiqləyir. Abbas Tufarqanlının "Duman, gəl get bu dağlardan // dağlar təzə bar eyləsin// nə gözlərim səni görsün, //nə könlüm qubar eyləsin..." misraları Əhməd Cavadın içdən gələn səsinə qoşularaq Azərbaycan adlı məmləkətin, qarı düşmən əliylə ikiyə bölünmüş yurdun gələcəyini – kədərini, dərdini, sevincini, ümidini.. eyni həssaslıqla ifadə edir. Cümhuriyyətin yarandığı ərəfədə elə Şimali Azərbaycan da düşmən əhatəsində bölünmüş vəziyyətdə idi. İngilislərin "təkidi" ilə İranın ərazi iddialarından əl çəkməsi və digər hadisələr məmləkətin sərvətlərinə və torpağına iddiası olan "vektorlar"ın nisbətən geri çəkilməsinə, "susub yatmasına" səbəb olsa da, iştah diş altında qalmışdı və – həm super güclərin "kiçik xalqların dövləti ola bilməz" iddiası, həm də bu kiçik ərazidəki yatırın göz qamaşdırması bütövlükdə dövlət quruculuğunun hansı çətinliklərdən keçməsini təsdiqləyən faktordur. Təssəvvür edin, Cümhuriyyətdən əvvəl və sonra Əhməd Cavadın mətləbindən asılı olmayaraq yazdığı şeirlər indi XXI əsrin əvvəllərində ən müxtəlif oxu üçün şərait yaradır, keçdiyimiz və keçəcəyimiz yolları açıq-aydın göstərir, ancaq sovet dönəmində qələmə alınmış ən güclü poetik nümunələr elə oturduqları qəlibdə susub qalırlar. Adı çəkilən şeirində "Bir dul gəlin könlü coşmuş // yol göstərin, hanı yarı//Oğlan çıxmış dönməz yola// nə naşi var, nə məzarı" misraları və 1917-ci ildə yazdığı digər şeirində

*Dəniz dərdə düşər, dalğalar ağlar,*
*Dağlar dərdə gəlsə, dumana yazıq!*
*Sənsiz öz elində qərib kəsilib,*
*Durnalardan xəbər umana yazıq!*
*Bir quş oxur bizə sabah azanı,*
*Çağırmaqda yola yoldan azanı,*
*Ərənlər söyləyin Allah yazanı,*
*Duymadan yox olan imana yazıq!*
*Gün batanda sarı bulud sarısı*
*Söylər, sizə düşmüş dərdin yarısı.*
*Ay elin xanımı, qızı, qarısı,*
*Əl açmış düşmana bacılar, yazıq!*

Xalqın yaddaşında və qəlbinə həkk edilmiş ağrı, dərd, tale şırımlarında oturuşmuş baxışların pərdəsini qaldırır, insanların taleyini onların qəlbində, ruhunda iz salan bədii mətnlərlə dialoqa girib onlarla dilləşməklə göstərir. Vaqifin və Zakirin "Durnalar" şeiri bu bədii mətnin fəzasında anidən görünür və yox olur, poetik mətnin içində bu söz-ifadə ən müxtəlif yaddaş laylarını yarıb keçməklə keçmiş əyyamlarda mətnlərin ifadə etdikləri mənaları dəyişdirir, onları bu günün ağrı və acılarına yönəldir.

Bir daha qeyd edək ki, cümhuriyyət məfkurəsi ideyalardan doğur. Müstəqil yaşamaq, kölə olmamaq inadından meydana gəlir. Cümhuriyyət məfkurəsini bədii mətnlərdən izləyəndə, özü də sistemli və ardıcıl şəkildə, – hansı nəticə və qənaətlər alınır? Şübhəsiz ki, hadisə bütün yönləriylə: hardan güc alması, nələrlə uğraşması, millətin həyatını hansı mühüm nəsnələrlə zənginləşdirməsi... hər şey metaforik şəkildə olsa belə, görsənir, ancaq bədii mətnin əsas təyinatı işarə edib göstərməklə bitmir. Öz dili və daxili intonasiyası ilə bir ixtiyari məqamı "doğrayıb" onu əsas hadisələr sırasına gətirib təzahürün bədii dərkini ortaya qoyur. Şeirdə indi və bu an verilən suallar gələcəkdə, bizim bu günümüzdə taleyin tarixçəsinə çevrilir. Əhməd Cavadın şeirlərində olduğu kimi. Bu şeirlərdə vəsf qatı, necə deyərlər, "sürüşkəndir", məqsəd oxucunu təsirləndirməkdən çox onun yaddaşına "yazılmaqdır".

Mədəni təməl inkarolunmaz faktordur, bu olmazsa, dövlət, dövlət sınırları içində hürr yaşamaq ideyası meydana gəlməz, çünki məhz bu faktor özündə müxtəlif ideoloji yönləri birləşdirir. Millət, xalq köləliyin nə qədər alçaldıcı olduğunu dərk edəndən bəri onun şüurunda istiqlal arzuları yetişir, bu arzular bədii düşüncəni formalaşdırır, ənənədə mövcud olan düşüncə qatı istiqlaliyyət toxumları ilə zənginləşir.

Çar Rusiyasının dağılması tarixin verdiyi bir fürsət idi. Bu fürsətin xalqın xeyrinə dövlətin yaranması ilə nəticələnməsi üçün xalqın bir neçə suala dəqiq cavab verməsi lüzumu yaranmışdı. Bizə nə lazımdır? Biz kimik və nə istəyirik? Cümhuriyyət məfkurəsinin formalaşmasını geniş və konkret çərçivədə götürüb dəyərləndirmək olar, yəni Azərbaycan Cümhuriyyəti məfkurəsinin toxumlarını ona yaxın keçmişdə – XIX əsrdə axtarmaq lazımdır. Əgər adı keçən dövrdə bunu ayrı-ayrı fərdlər, deyək ki, Axundzadə və ya Zərdabi fərd kimi icra edirdilərsə, yeni mərhələdə – XX əsrin əvvəllərində həmin təklərin mübarizəsi bir böyük nəsil yetişdirmişdi, bunlar əməl və əqidə insanları idilər. Onların hər birinin gördüyü işlər həm də gələcəyə ünvanlanmışdı. Firudin bəy Köçərlinin "Azərbaycan türklərinin ədəbiyyatı" kimi. Axundzadənin "müasirləşmək konsepsiyası" bu mənada ciddi şəkildə araşdırılmalıdır. Bəzən bir böyük şəxsin yaradıcılığı insanlara bütün yönləriylə, daha doğrusu, mahiyyətcə aydın olmur və ona qarşı "tənqid kampaniyası" illərcə davam edir. Diqqət edin: Azərbaycan dramaturgiyasını əvvəllər ümumi tərəqqi problemi məşğul edirdisə, XX əsrin əvvəllərində bütün diqqət məişətə yönəldi, bu, baxışın daraldılması mənasına gəlmir, əksinə, problemi ən ağrılı

yerindən göstərmək lüzumundan qaynaqlanır. Daha sonra, Cəlil Məmmədquluzadənin, Cavidin və xüsusən Cabbarlının dramaturji yaradıcılığı cəmiyyətdə gedən prosesləri qlobal problemlər kontekstində göstərmək lüzumi ilə aşılanır. Yəni bir tərəfdən, məsələn, N.Vəzirovun komediyalarında məişət bütün ağrılı nöqtələriylə, ümidsiz hallarıyla diqqət mərkəzinə çəkilir, digər tərəfdən "Ölülər" və "Dəli yığıncağı"nda, daha sonra Cabbarlı yaradıcılığında dünya səhnəsində, daha geniş planda oynanılır. Bir neçə sənətkar var ki, onların yaradıcılıqlarının cümhuriyyət yaranana qədərki etapı cümhuriyyət məfkurəsini öyrənmək baxımından vacibdir.

XX əsrin əvvəllərində, yadelli işğalçıların niyyətləri gerçəkləşməzdən öncə bu məmləkətdə əqidə və məfkurələrin toqquşması, amansız mübarizəsi gedirdi. Bu mənada cümhuriyyət məfkurəsinə yolu açmaq üçün Mirzə Ələkbər Sabir məsələsi yetərincə öyrənilməlidir. Sabir ədəbiyyatın, bədii düşüncənin ictimai şüura müdaxiləsini sürətləndirdi, bir şairin dediyi kimi, Sabir "narahat Şərqin zəlzələlər mərkəzi"nə çevrildi. Dünyada gedən proseslər, dünya siyasi xəritəsinin yenidən cızılması, nəhəng imperiyaların əsasından laxlaması... bu gözlənilməz hadisələr bütün dünyada artıq oturuşmuş təsəvvürləri radikal şəkildə dəyişdirdi. Sabir yaşadığı, dərdləriylə nəfəs aldığı məmləkəti qlobal müstəvidə görür, şeirlərini bu baxış bucağından qələmə alırdı. İran şahının axmaq hərəkətlərinə həsr elədiyi şeirdə dövranın necə dəyişməsi, köhnəliyin məmləkətləri haralara sürükləməsi aydın görünür. O həm də belə bir böhranlı zamanda köhnəliyi "qucaqlayıb" yerindən tərpənməyən ölkə və dövlətlərin bir an içində yanıb külə çevrilmək, xalqlarını bədbəxt etmək perspektivini də açıb göstərirdi. Əsr mürəkkəb idi, onun içində ən mürəkkəb ideoloji istiqamətlər baş-başa gəlir, ayrılır, dünyanın siyasi xəritəsinin üzərindəki rənglər göy üzünü bürüyən tufan öncəsi qara buludlara bənzəyirdi. Sabir təkcə şeirin, poeziyanın dilini, intonasiya və ideologiyasını dəyişmədi, həm də bədii ədəbiyyatın ictimai şüura nüfuzunun miqyasını dəyişdi və beləcə dünyanı, gerçəkliyi dərketmənin sınırlarnı genişləndirdi.

*Gördüz ki, necə sizləri təqib elədim mən!*
*Baqqal balasın leşkərə sərtib elədim mən!*
*Ataşla yaxıb məclisi təhrib elədim mən!*
*Quranı danıb, andı da təkzib elədim mən!*
*Sövgənd nədir, əhd nə, fərman özümündür.*
*Şövkət özümün, fəxr özümün, şan özümündür!*
*Osmanlıda gərçi ucalır bir para səslər!*
*Alqışlayır o səsləri hər qırmızı fəslər!*
*Qəm çəkməyin, ey köhnələr, ey köhnəpərəstlər!*
*İranıma təsir edəməz böylə nəfəslər!*
*Bundan sonra bu ölkədə meydan özümündür!*
*Məhluq özümün, hancarı bürran özümündür.*

*Romantik şair Məhəmməd Hadi isə yazırdı:*

*...Qoymuş miləl imzasını övraqi-həyata,*
*Yox millətimin xətti bu imzalar içində...*

XIX əsrin ortalarından yaranmağa, təşəkkül tapmağa başlamış maarifçi düşüncə, şübhəsiz ki, siyasi düşüncə deyildi, onunla yoğrulmamışdı və belə olduğu üçün konkret məsələlərin qoyuluşu və həlli ilə məşğul ola bilməzdi. XIX əsrin sonu, XX əsrin əvvəllərinə, məsələn, 1907-ci ildə "bizə hansı elmlər lazımdır: dini, yoxsa dünyəvi" təriqində aparılan müzakirələrin kitab halında nəşrinə qədər ictimai düşüncədə istiqamət ümumidən konkretə, xüsusiyə doğru gedirdi.

Cümhuriyyət öncəsi və sonrası ədəbiyyatı necə səciyyələndirmək olar? Məsələn, Cəfər Cabbarlı yaradıcılığını. Tədqiqatçılar bunu cümhuriyyətin yaranmasına hazırlıq kimi dəyərləndirirlər. Düzdür, ancaq tam deyil.

M.Ə.Rəsulzadə milli azadlıq yolunda əldə edilən müvəffəqiyyətlərin qazanılmasında bədii ədəbiyyatın rolunu belə dəyərləndirir: "Azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur". O, "Qurtuluş günü" məqaləsində yazır: "Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər, millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz".

Firudin bəy Köçərlinin "Ədəbiyyat tarixi" cildləri də missiyası etibarı ilə nəhəng iş idi; hardasa köhnə şablonlar üzərində qələmə alınsa da, Firudin bəyin əsərini Lütfəli bəy Azərin və digər təzkirəçilərin mətnlərindən fərqləndirən bir mühüm cəhət məsələyə yanaşmanın elmi-metodoloji xassəsi idi, müəllif təsvir-təzkirə cığırıyla hərəkət edib gələcəkdə yaranacaq ədəbiyyat tarixlərinin konsepsiyasız yazıla bilməyəcəyini fakt kimi ortaya qoyurdu. Köhnəyə, köhnə təsvir və təqdim üsullarına çox fərqli, onu kökündən inkar edən metodla yanaşdıqda keçmişin bütün uğurlu və sağlam elementləri yeni yanaşmada iştirak edir və onun daha da dolğunlaşmasına şərait yaradır. Firudin bəy Köçərli əsərinin "Başlanğıc" hissəsində sanki bunu demək istəyirmiş kimi yazırdı: "...nə qədər bir qövm və tayfa elmsiz və mərifətsiz olsa, bir o qədər onun ədəbiyyatı zəif və biməzmun olacaqdır. Hətta çox tayfalar vardır ki... ədəbiyyat nə olduğunu bilməzlər... Bunlar dünya üzündə çox müddət yaşamayıb puç və zay olurlar. Tərəqqi və səadət fikrində olan və əbədi zindəganlıq arzusuna düşən qövm və millət gərəkdir ən əvvəl öz ana dilinin vüsət və qüvvət tapmağına səy və himmət göstərsin və ədəbiyyati-milliyyəsini asari-nəfisə və təsnifati-məmduhə ilə zənginləşdirsin".

Yeni bir insanın, yeni, tam fərqli təfəkkür sahibinin ani toxunuşuyla keçmiş dəyişir, təzələnirdi, insanların qəlbində mənsub olduğu millətin qoyub getdiyi irsə sonsuz sevgi yaranırdı. Və bu məqamda keçmişə qayıdışla ondan biryolluq ayrılma, vidalaşma eyni anda baş verirdi. Keçmişin gözəl, türfə şeylərini bağrına basıb, onu vətəndə qürbətdəki kimi yaşadan adətlərdən uzaqlaşdırma cəhdləri epizodik cəhətlər deyildi. Hələ Abbas Səhhət...

"Yazmısan təzə nə şeylər?" – deyə sordun məndən,

*Ruhumun tarına mizrabçən oldun, qardaş!*
*Sabir ilə belə məktubu çox aldıq səndən,*
*Hər nə yazdıqsa, ona bani sən oldun, qardaş!*
*Bir zaman Nasehü Tərrah ilə Sabir, bəndə,*
*Yaşayırdıq hamımız qəflət ilə fərxəndə.*

*Birimiz marsiyəguluqda böyük şair idi,*
*Birimiz sağərə mail, birimiz canana.*
*Birimiz həcvdə Yağma kimi çox mahir idi,*
*Laübalı keçinirdi günümüz rindanə.*
*O pərişan yuxudan sən bizi bidar etdin,*
*Doğru, düz yolda çalışmaqlığa vadar etdin.*

Hər bir işi, fəaliyyəti ilə insanlara təsir etmək, onları illərin ağır yuxusundan "bidar etmək" məqsədini qarşısına qoyan maarifçi bu istiqamətdə ən kəsərli vasitələrdən istifadə edirdi. Abdulla Şaiq də elə bu xassəni qabardırdı: "... bizim el ədəbiyyatımız o qədər vüsətlidir ki, yazmaqla qurtaracaq şeylərdən deyil. Millətimizin istedad və məharəti – fitrilərinə və əhvali-ruhiyyəsinə aşina olmaq istəyənlər möhtərəm Firudun bəy Köçərlinin "Balalara hədiyyə" kitabçasından istifadə edə bilərlər. O, camaatımızın arasındakı nağıl, məsəl, tapmaca və şeirləri bir yerə toplamaqla körpələrimizə böyük hədiyyə etmişdir". Ancaq sitatda deyildiyi kimi, bu, təkcə körpələr üçün bir hədiyyə deyildi. Bu kitab daha böyük bir yolun-məqsədin ilkin cığırı-pöhrəsi rolunu oynayırdı. Firudin bəy Köçərli bütün bu müxtəlif istiqamətlərə şaxələnən, ancaq bir malada birləşən marşrutda bu suala cavab axtarırdı və cavab verirdi: "Əsl ədəbiyyat necə olmalıdır? Daha doğrusu, indi, onun "Ədəbiyyat tarixi materialları"nı, ədəbi prosesdən, onun simalarından və hadisələrindən bəhs edən müxtəlif məqalələrini nəzərdən keçirdikdə, alimin hər bir addımıyla "müasir ədəbiyyat" kateqoriyasını bələdiyinin şahidi oluruq. O, əslində, daha çox çağdaşı olduğu ədəbiyyatdan yazsa da, keçmişlə bu günü-ənənə ilə müasir təfəkkür tərzini vahid plan daxilində götürürdü. Bu cəhət onun "Ədəbiyyat tarixi"nin unikal xüsusiyyəti idi və Firudin bəyə qədər heç bir təzkirədə və bu tipli yazılara rastlanmamışdı. Firudin bəy Köçərlinin "Ədəbiyyat tarixi" daha çox, belə demək olarsa, Mendeleyevin cədvəlinə oxşayırdı. Ümumi sxemi qurursan, strukturu bələyirsən, gələcəkdə sənin boş qoyduğun yerlər lazımi məqamlarda dolur, həm də müvafiq valentlik xüsusiyyətləri ilə. Valentlik kimyəvi elementin birləşmə gücüdür, Köçərlinin "cədvəlindəki" mətnlər də məhz belə bir xüsusiyyətə malik idi, onlar keçmiş və gələcəyin mətnlərini, həm də ana dilinin saflıq və gözəlliyini hifz edən mətnlərini özünə çəkir, onlardan bütövlük təsəvvürü yaradırdı. Keçmişin ədəbi mətnləri, bu günün ədəbi prosesinin hadisələri bir sabit, bəzən də müəyyən hissəsi gizli halda olan dəyər daşıyır, Firudin bəyin fikrincə, tədqiqatçı bu dəyəri aşkarlamalı, onun xassəsini elə usta şəkildə ortaya qoymalıdır ki, əsərin və müəllifin qayəsi, bütövlükdə mətnin tərcümeyi-halı boyaboy görünə bilsin. Onun Puşkin və Tolstoy haqqında müqayisələri bu baxımdan lap yerinə düşür. Ədib çox incə detallardan istifadə edərək yazırdı ki, təbi (talantı, ilhamı...) etibarıyla Puşkinin dühasını durbinə, Qoqolun dühasını isə zərrəbinə tay tutmaq mümkündür. Durbin uzağı yaxın edir, uzaqlardakı bütün incəlikləri yanına, əlinin altına gətirir. Zərrəbinsə yaxındakı ən nöqtəvi şeylərin belə his və pasını göstərir. Firudin bəy Köçərli filoloji yanaşmada, fikrimizcə, bu iki üsulun vəhdətinin nəzərə alınmasının tərəfdarı idi. Ona görə də materiallarda təqdim etdiyi şair və yazıçıların bioqrafiyasından tutmuş, əsərlərinin təhlilinə qədər yalnız ən incə, yalnız zərrəbin altında görünə bilən xüsusiyyətləri qələmə alırdı. Bütün bu hərəkətləri ilə Firudin bəy Köçərli "müasir ədəbiyyat kateqoriyası"nın nəzəri sxemini qururdu. Sovet dövründə və müstəqillik illərində yazılan ədəbiyyat tarixlərində məsələyə belə kateqorial yanaşma məhz Firudin bəydən qaynaqlanır. Yəni "...Əsl ədəbiyyat həyati həqiqətləri əks etdirməklə yanaşı, cəmiyyəti, xalqı qabaqcıl ideyalarla silahlandırmalıdır, onun azadlıq mübarizəsinə kömək etməlidir: həqiqi şair, millət və Vətən yolunda canlar fəda etmək lazım isə, Vətən oğlanlarının ürəyinə yandırıcı od salıb, onları hər qisim fədakarlığa və cannisarlığa şövqmənd etməlidir".